# Müslüm əbədi yaşayacaq!

*Yeganə BAYRAMOVA*

Müslüm Maqomayev haqqından danışmaq çətin və məsuliyyətlidir. Çünki o, dahi sənətkar, mühüm şəxsiyyət, bəşəri insan idi. İfa tərzi, səsi, sənəti SSRİ kimi hüdudsuz, qapalı və qaranlıq bir ölkənin çərçivəsinə sığmırdı.



Bu gün-avqustun 17-də dünya şöhrətli sənətkarın doğum günüdür. Müslümün sənətini, şəxsiyyətini bir neçə səhifədə izah etmək mümkünsüz olsa da, onun bəzi çalarlarını vurğulamaq istərdik...

Dahi sənətkar vətənpərvərlikdən bəsit danışmazdı. Bəstələdiyi "Azərbaycan" mahnısını təkrarsız ifa etməklə doğma Vətəninə olan böyük məhəbbətini göstərmişdi. Təsadüfi deyil ki, bu əsər müasir ölkəmizin müsiqili rəmzinə, vizit vərəqəsinə çevrilib.

Hətta bu əsər Ulu Öndərimiz tərəfindən o qədər sevilirdi ki, o bir dəfə Müslüm Maqomayev haqqında çıxış edəndə "Əgər Müslümün heç bir şeyi olmasaydı, "Mənim Azərbaycanım" mahnısına görə o, ən yüksək hörmətə layiqdir" ifadəsini işlətmişdi. Müslüm Maqomayev təkcə Azərbaycanda deyil, Sovetlər birliyində, eləcə də bütün dünyada tanınan və sevilən bir müğənni idi. Onun Azərbaycana həsr etdiyi bu mahnı ölkəmizi bütün dünyada tanıtmışdı.

2002-ci ilin sentyabr ayının 6-da Müslüm Maqomayevin 60 illik yubileyi ilə əlaqədar Heydər Əliyev ona "İstiqlal" ordeni təqdim edərkən demişdi: "Müslüm çox mahnılar yaratmışdır, yəni o, özünü bəstəkar kimi də gözəl tanıtmışdır. Ancaq onun ən görkəmli mahnısı Azərbaycana həsr etdiyi mahnıdır. Bu mahnı Azərbaycanın himni kimi səslənir."

Müslümün sənəti dünən də yüksək qiymətləndirilirdi, bu gün də ölkə rəhbərliyi tərəfindən onun sənətinə dəyər verilir. 2022-ci ildə dünya şöhrətli sənətkarın 80 illik yubileyi ərəfəsində Prezident İlham Əliyevin tapşırığına əsasən Dənizkənarı Milli Parkda abidəsinin ucaldılması bu dəyərin bariz nümunəsidir. Ölkə başçısının abidənin açılış mərasimində dediyi kimi, Bakının gözü olan bulvarda dahi sənətkarlarımızın ruhları dolaşır, o cümlədən Müslümün. Ona görə bu abidəyə yaxınlaşan bizim vətəndaşlarımız "Salam, Müslüm" deyəcək və Müslüm əbədi yaşayacaq...

Yeni Azərbaycan.- 2024.- 17 avqust, №148.- S.8.